**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# "KASPİ" QƏZETİNDƏ MƏKTƏB VƏ TƏHSİL MƏSƏLƏLƏRİ (1881-1919-CU İLLƏR)

İxtisas: 5804.01 – "Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi"

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Ayşən Cəngavər qızı İmanlı**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**NAXÇIVAN-2025**

Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin "Pedaqogika və psixologiya" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Pedaqoji elmlər doktoru, professor
**İsmayıl İsrafil oğlu Əliyev**

**Rəsmi opponentlər:** Pedaqoji elmlər doktoru, professor,
Əməkdar elm xadimi
**Fərrux Abbas oğlu Rüstəmov**

Pedaqogika üzrə fəlsəfə doktoru
**Lamiə Nizami qızı Hacımuradova**

Pedaqogika üzrə fəlsəfə doktoru
**Gülmira Sahib qızı Əsədova**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Naxçıvan Müəllimlər İnstitutu nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Pedaqoji elmlər doktoru, professor
**İsmayıl İsrafil oğlu Əliyev**
(imza)

Dissertasiya şurasının elmi katibi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Qızıltac Tarverdi qızı Şahbazova**
(imza)

Elmi seminarın sədri: Pedaqoji elmlər doktoru, professor
**Ləzifə Nağı qızı Qasımova**
(imza)

## TƏDQİQATIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan ziyalıları təhsilin, yeni pedaqoji düşüncənin yayılması və inkişafında müxtəlif vasitələr və yollardan istifadə etməklə, xalqın maariflənməsi, zamana uyğun baxışlarla yaşayıb işləyə bilməsi üçün bütün qüvvələrini, bilik və imkanlarını birləşdirməyə çalışır, əsl mübarizə əzmi nümayiş etdirirdilər. Təlim və tərbiyə işlərinin zamana uyğun qurulması, dünyəvi təhsil verən məktəblərin təşkili, fəaliyyəti Azərbaycan maarifçilərini, ziyalılarını həmişə məşğul edən məsələlər idi. Bu böyük tarixi hərəkatın əsas qayəsi milləti savadlandırmaq, onu cəmiyyət üçün hazırlamaq, mütərəqqi inkişafın qarşısına sədd çəkən adət-ənənələri aradan qaldırmaq, bir sözlə, xalqın milli və siyasi şüurunu inkişaf etdirməkdən ibarət idi. Təhsilin, pedaqoji fikrin nəzəri və təcrübi olaraq yayılması və inkişafı müxtəlif vasitələrlə həyata keçirilirdi. "Əkinçi"dən tutmuş "Azərbaycan" qəzetinədək ana dilli dövrü nəşrlər ictimai fikrin yeniləşməsi, maarifin yayılması, dünyəvi, həyati biliklərin əhalinin geniş təbəqələrini əhatə edə bilməsi üçün mübarizənin ön sıralarında idi.

Təhsilin, pedaqoji fikrin yayılması və inkişafında Azərbaycanda nəşr olunan rus dilli mətbuatın da rolu böyükdür. Bəhs olunan dövrdə Bakıda rus dilində nəşr edilən mətbuat orqanları sırasında mühüm yeri "Kaspi" (1881-1919) qəzeti tuturdu. Bu qəzetin səhifələrində rus dilli jurnalistlərlə yanaşı, tanınmış azərbaycanlı ziyalılar da fəal iştirakçı idilər. 1897-ci ildən qəzetin naşirliyini H.Z.Tağıyev öz üzərinə götürür və redaktorluq Ə.Topçubaşova tapşırılır. Bu dövrdən etibarən qəzet rus dilində nəşr olunsa da, ictimai-elmi fikirdə "müsəlman Kaspisi" kimi məşhurlaşır. Qəzet təkcə Qafqazda deyil, Rusiyanın bir sıra şəhərlərində, xarici ölkələrdə də yayılırdı. "Kaspi"də ozamankı Azərbaycan ziyalıları- H.Zərdabi, M.Şahtaxtlı, Ə.Ağaoğlu, F.Köçərli, S.M.Qənizadə, Ə.Hüseynzadə, N.Nərimanov, C.Məmmədquluzadə, C.Hacıbəyli, M.Mahmudbəyov T.Bayraməlibəyov və başqaları xalqımızın məişəti, dili, adət-ənənələri, psixologiyası, ədəbiyyatı, azərbaycançılıq ideyalarından bəhs etməklə yanaşı, təhsil və tərbiyə

məsələlərini də işıqlqandırmışlar. “Kaspi” qəzeti 38 ilə yaxın bir dövr ərzində milli burjuaziyanın mənafeyindən çıxış edərək Azərbaycan təhsilinin, pedaqoji fikrinin hərəkat səviyyəsinə yüksəlməsində öz mövqeyini ortaya qoya bilmişdi.

“Kaspi” maarifçilik və təhsil problemlərinə aid ziyalılarımızın yazılarına daha çox yer ayırmış, maarifçi idealları həmişə müdafiə edərək cəmiyyət üzvlərinin, xüsusilə qadınların hüquqlarının təmin edilməsini, onların savadsızlığının aradan qaldırılmasını vacib saymış, bu sahədə mübarizənin ön sıralarında getmişdir. Ziyalılar cəmiyyət həyatınında belə bir cəhətə üstünlük verirdilər ki, əgər insan öz hüquqlarını başa düşərsə, zamanla ayaqlaşa bilən baxışlara yiyələnərsə, tərəqqiyə, cəmiyyətin inkişafına nail olmaq mümkündür.

Qəzetdə pedaqoji jurnalistikamızın nadir inciləri var. M.Şahtaxtlı, H.Zərdabi, Ə.M.Topçubaşov, Ə.Ağayev, C.Hacıbəyli və digərlərinin adları qəzetin tarixinə yazılan imzalar idi. “Kaspi” rus dilli pedaqoji jurnalistikasının təməlini, özülünü qoydu. Qəzetdə belə bir prinsip rəhbər tutulurdu ki, tərbiyə və təlim problemləri mədəniyyətin inkişafı ilə sıx bağlı olduğundan təhsil fəlsəfəsini və onun humanist mahiyyətini mədəniyyətdən kənar hesab etmək olmaz.

“Kaspi”dəki pedaqoji düşüncə materialı öyrənilməmiş, ölkə pedaqoji fikrini və zənginləşdirə biləcək tədqiqatlar aparılmamışdır. Ötən əsrin sonlarında ədəbiyyat və vətən tarixi üzrə dissertasiyalar hazırlanmışdır. Belə əsərlərdən E.R.Vahabovanın,[1] S.Mövlayevanın,[2] Z.M.Kərimovun,[3] Ü.B.Mehrəliyevanın[4] tədqiqatlarını göstərmək olar.

---

[1] Вагабова Э.Р. Вопросы народного образования в Азербайджане на страницах газеты «Каспий» (1893-1917 гг.), дис...канд. ист. наук. – Баку, – 2000.

[2] Мовлаева С.А. Пропаганда русской и азербайджанской культуры на страницах газеты «Каспий»; (1881- 1917 гг.). – Баку, – 1993.

[3] Kərimov Z.M. Şimali Azərbaycanda ictimai – siyasi hərəkatın tarixində mətbuatın rolu (XX əsrin əvvəlləri). Vətən tarixi üzrə fəls. dok ... dis. – Bakı, – 2014.

[4] Mehrəliyeva Ü.B. “XIX əsrin sonu və XX əsrin əvvəli Azərbaycanda ictimai-pedaqoji hərəkat və onun mətbuatda əks olunması. – Bakı, – 2013.

Sonuncu əsər ana dilində nəşr olunan mətbuatda təhsilin və pedaqoji nəzəriyyənin problemlərinin öyrənilməsi məqsədini izləyir. "Kaspi"də əvvəlki dəyərlər sistemi, təfəkkür və davranış normaları ilə razılaşmaq, yaxud qəbul etməmək, yeni ideallar əxz etmək, bunu milli mənlik şüuru, milli ləyaqətlə necə əlaqələndirmək və s. bu kimi suallara cavab axtarışı, demək olar ki, görünmürdü. Unutmaq olmaz ki, pedaqoji nəzəriyyə ictimai fikir hərəkatı ilə sıx əlaqədədir və əsasən bu proseslərlə müəyyənləşir. Ona görə də bu suallara cavab verməyə, təhsil sahəsinə münasibətdə mövcud ziddiyyətləri həll etməyə yönəlmiş tədqiqatların hazırlanması aktuallaşır. Müstəqillik dövründə də "Kaspi" qəzeti haqqında tarixi, ədəbi, publisistik nəşrlər də işıq üzü görmüşdür. Bu nəşrləri üç qrupa bölmək olar:

1."Kaspi" qəzetinin fəaliyyəti ilə bilavasitə bağlı olan tədqiqatlar. Buraya tədqiqatçı alimlərdən N.Yaqublunun[5] və V.Quliyevin[6] araşdırmalarını aid etmək olar.

2. Maarifçi-ziyalıların "Kaspi" ilə əməkdaşlığının öyrənilməsi ilə bağlı əsərlər. Abid Tahirlinin[7], L.Hacıyevanın[8] əsərləri bu istiqamətdə yazılmışdır.

---

[5] Yaqublu N. "Kaspi" qəzetinin yaranması və fəaliyyəti. –Bakı, – 2011.

[6] Quliyev V. "Kaspi"dən seçmələr. – Bakı, – 2018.

[7] Tahirli A.Ceyhun Hacıbəylinin həyat və yaradıcılıq yolu. – Bakı, – 2019.

[8] Hacıyeva L. Azərbaycanın rusdilli dövri mətbuatının tarixindən (1871-1918). – Bakı, – 2017.

3. Mətbuat tariximizə aid tədris vəsaitləri. Akif Aşırlı[9], Akif Şahverdiyevin[10] dərslikləri jurnalistika ixtisası üzrə təhsil alan tələbələrin mətbuat tarixinə aid biliklərə yiyələnməsinə köməkçi vəsaitlərdir.

4. "Kaspi"nin və onun əməkdaşlarının təhsil və pedaqoji fikrin bu və ya digər problemlərinə aid pulisist yazıları haqqında məqalələr toplusu. Bu əsərlər sırasında "Kaspi – üç əsrin qəzeti"[11] adlı toplu xüsusi qeyd olunmalıdır.

Göründüyü kimi, problemlə bağlı ayrıca pedaqoji yönlü tədqiqatlar aparılmamışdır. Bu səbəbdən də mövzunun aktuallığı nəzərə alınaraq dissertasiyanın "Kaspi" qəzetində təhsil və tərbiyə məsələləri" kimi adlandırılması məqsədəuyğun hesab edilmişdir.

---

[9]Aşırlı A. Azərbaycan mətbuatı tarixi (1875-1920). – Bakı, – 2009.

[10] Şahverdiyev A. Azərbaycan mətbuatı tarixi. – Bakı, – 2009.

[11] "Kaspi" – üç əsrin qəzeti. – Bakı, – 2011.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyekti XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan mətbuatında təhsil və pedaqoji fikirdir.

**Tədqiqatın predmeti.** Tədqiqatın predmeti "Kaspi" qəzetində Azərbaycan ziyalılarının dövrünün qabaqcıl pedqoji fikrinin və təhsilinin yayılması və inkişafı uğrunda mübarizəsinin şərhidir.

**Tədqiqatın məqsədi.** Tədqiqatın məqsədi XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda rusdilli mətbuatın mütərəqqi məzmuna malik nümunəsi kimi "Kaspi" qəzetində pedaqoji fikrimizin və təhsil tariximizin məzmununa aid məsələlərini aşkar etmək, onun xarakter xüsusiyyətlərini üzə çıxarmaq, ziyalıların yeni məktəblərin yaradılması uğrunda mübarizəsinə aid yazılarını təhlil etmək, bu pedaqoji sərvətin dövrünün sosial-pedaqoji mühitinə verdiyi faydanı müəyyənləşdirməkdən ibarətdir.

Tədqiqatda belə bir ümumi məqsədin həyata keçirilməsi üçün aşağıdakı **vəzifələrin** həllinə səy göstərilmişdir:

– "Kaspi" qəzetində XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda sosial-siyasi şəraitə uyğun olaraq ictimai-pedaqoji hərəkatın əks olunma vəziyyətini müəyyənləşdirmək;

– Azərbaycanda elm, maarif, mədəniyyətin inkişafı və yeni pedaqoji düşüncə tərzi uğrunda mübarizədə "Kaspi" qəzetinin rolunu aydınlaşdırmaq;

–Qəzetin Azərbaycan pedaqoji mədəniyyətində formalaşdırdığı mütərəqqi fikir və ideyaların əhəmiyyətini göstərmək;

–"Kaspi" qəzetində qadın təhsili və tərbiyəsinə aid mütərəqqi məzmunu üzə çıxarmaq;

**Tədqiqatın metodları.** Tədqiqat zamanı nəzəri-tarixi, müqayisəli təhlillərdən, problemlə bağlı dövrü nəşrlərin, arxiv materiallarının öyrənilməsi və onların ümumiləşdirilməsi, sistemə salınmasına aid metodlardan istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada elmi yeniliyini aşağıdakılarla səciyyələnir:

– "Kaspi" qəzetində Azərbaycan mütəfəkkirlərinin təlim və tərbiyəyə aid fikirlərinə kompleks yanaşma nümayiş etdirilmiş, Azərbaycan təhsilinin və pedaqoji fikrinin bu zəngin və qiymətli səhifələri sistem halında təhlilə cəlb edilmişdir;

– Qəzetdə əks olunan pedaqoji ideyalar, yeni təhsil müəssisələrinin yaradılması uğrunda mübarizə ardıcıl şəkildə, biri-biri ilə qarşılıqlı əlaqəli təsirdə öyrənilmişdir;

– Buradakı təhsilə və pedaqoji məsələlərə aid materiallardan elmi ədəbiyyatda istifadə edilməsi və ümumən mövzunun tədqiq olunma səviyyəsi problem kimi qoyulmuş və həllinə səy göstərilmişdir;

– Bütövlükdə ilk mənbələr əsasında yazılmış dissertasiyada məktəb və pedaqoji fikrimizin çox əhəmiyyətli səhifələri öyrənilməklə Azərbaycan təhsili və pedaqoji fikrinin inkişafında "Kaspi"çilərin yeri və mövqeyi təhlil edilərək üzə çıxarılmışdır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, "Kaspi" qəzetindəki pedaqoji ideyaların təhlili dərin və hərtərəfli şəkildə öyrənilir, pedaqoji fikrimizin və təhsilimizin tarixi yeni faktlarla zənginləşdirilir, bu böyük mədəni sərvətin ümumi mənzərəsinin tamlığına nail olmaq üçün yeni materiallar təqdim olunur.

Dissertasiya işinin əsas müddəaları, həmçinin nəticələrindən Azərbaycan məktəb və pedaqoji fikrinə aid araşdırmalarda, pedaqoji jurnalistika tarixi üzrə tədqiqat işlərinin və ümumiləşdirici əsərlərin yazılmasında, Azərbaycan məktəb və pedaqoji fikir tarixinə dair dərslik, dərs vəsaitlərinin hazırlanmasında, ali məktəblərin pedaqoji fakültələrində xüsusi kursların keçirilməsində, xüsusi seminarların təşkilində istifadə edilə bilər.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

–"Kaspi" qəzetində maarifçi ziyalıların pedaqoji ideyaları XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycan təhsilinin və pedaqoji fikrinin tərkib hissəsidir;

–"Kaspi" qəzetində işıq üzü görən pedaqoji yönlü yazılar Azərbaycanda təhsilin inkişafına kömək etmiş, milli pedaqoji fikrin formalaşmasını təmin etmişdir;

– H.Zərdabi, M.Şahtaxtlı, Ə.Ağaoğlu, Ə.Hüseynzadə, T.Bayraməlibəyov, C.Hacıbəyli və başqalarının "Kaspi" qəzetində fəal iştirakı digər sahələrlə yanaşı, zamanın tələblərinə cavab verən təhsilin və yeni pedaqoji ideyaların yayılmasına əsaslı təsir götərmişdir;

–“Kaspi” qəzetində milli ziyalıların nüfuzu artmış, milli və ümumbəşəri ənənələrin qarşılıqlı əlaqələrininin inkişafı müşahidə olunmuşdur ki, bu da regionda təhsilin və pedaqoji fikrin struktur-məzmun baxımdan yeni əlamət və keyfiyyətlərlə zənginləşməsi kimi üzə çıxmışdır.

**Dissertasiya işinin aprobasiyası və tətbiqi.** Dissertasiya işinin mövzusu 31 yanvar 2017-ci ildə (protokol №5) Naxçıvan Dövlət Universitetinin Elmi Şurasında və 29 sentyabr 2021-ci ildə Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası Humanitar Elmləri üzrə Problem Şurasının qərarı ilə təsdiq edilmişdir. Dissertasiyanın əsas müddəaları və alınmış nəticələrə dair materiallar üzrə biri xaricdə olmaqla 3 elmi konfransda məruzələrlə çıxışlar edilmiş, biri xaricdə olmaqla 6 məqalə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövri elmi jurnallarda nəşr olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi müəssisənin adı**. Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin “Pedaqogika və psixologiya” kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.**

Dissertasiya işi giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin girişi hissə 7 səhifə, 13427 işarədən, birinci fəsli 51 səhifə, 99696 işarədən, ikinci fəsli 68 səhifə, 131104 işarədən, nəticə hissəsi 4 səhifə, 6228 işarədən ibarətdir. Dissertasiyanın ümumi həcmi 143 səhifə, 250.455 işarədən ibarədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya giriş, altı paraqrafı əhatə edən iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyatların siyahısından ibarətdir.

Dissertasiyanın **“Giriş”** hissəsində mövzunun aktuallığı əsaslanıdırılmış, işin öyrənilmə səviyyəsi, məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, aprobasiyası, quruluşu haqqında məlumat verilmişdir.

Tədqiqatın **“Gənc nəslin milli-mənəvi ruhda tərbiyəsində “Kaspi” qəzetinin rolu”** adlı birinci fəsli üç paraqrafdan ibarətdir. Bu fəslin **“Kaspi” qəzetində böyüyən nəslin milli oyanış, sosial-mədəni yüksəliş ruhunda tərbiyəsi problemi”** adlı birinci paraqrafında böyüyən nəslin milli oyanış, sosial-mədəni yüksəliş ruhunda tərbiyəsi məsələlərindən bəhs olunur. Göstərilir ki, Azərbaycanda ilk rus dilli qəzetlərdən biri kimi “Kaspi” qəzeti XIX əsrin sonu, XX əsrin əvvəlində uzun ömürlü, gündəlik ictimai-siyasi qəzet idi. 1881-1919-cu illərdə Bakıda nəşr olunmuşdur. Məşhur xeyriyyəçi H.Z.Tağıyev 1897-ci ildə qəzetin redaksiyası və mətbəəsini almış, Ə.M.Topçubaşovun başçılığı ilə Azərbaycan ziyalılarına vermişdi. Bununla da qəzetin nəşri tarixində yeni bir mərhələ başlandı. Bu dövrdən etibarən qəzetin Azərbaycan xalqının milli maraqlarına xidmət edəcək səviyyəyə çatdırılması uğrunda səylər gücləndi. Tədqiqatçı S.Mövlayevanın yazdığı kimi bu dövrdə qəzet *“daha da nüfuzlu olmuş və cəmiyyətə xidmət göstərdiyi 16 il ərzində həyati, həssas və məzmunca geniş və zəngin olan qəzet kimi ad çıxarmışdı. Qəzetin tirajı ildən-ilə artmış, Peterburq, Moskva və Tiflis mətbuatında Bakı qəzetinə maraq oyatmışdı.”*[12]

Rus dilində nəşr olunmasına baxmayaraq, qəzet azərbaycançılıq məfkurəsinə düzgün münasibəti, xalqımızın tarixi taleyinə, onun gələcəyinə yaxşı bir yanaşma nümayiş etdirməsi ilə ictimai fikrin diqqətini çəkirdi. “Kaspi” Azərbaycan xalqının milli təfəkkürünün oyanışında, milli azadlıq hərəkatında, İslam Şərqində ilk Xalq Cümhuriyyətinin yaranmasında, Azərbaycan ziyalılarının mübarizə amallarının formalaşmasında xüsusi rol oynamışdır.

Milli ziyalılığın nümunəsi H.Zərdabi, geniş sosial biliklərə sahiblənmiş M.Şahtaxtlı, görkəmli dövlət xadimi N.Nərimanov, bütün Rusiya müsəlmanlarının hüquqlarının müdafiəçisi, Azərbaycan Demokratik Respublikasının yaradıcılarından biri Ə.M.Topçubaşov, həyatını xalqına xidmətə, maarifçilik fəaliyyətinə həsr etmiş Ə.Ağayev, azərbaycançılığın təbliği sahəsində xidmətləri olan ədəbiyyatşünas alim F.Köçərli, C.Hacıbəyli və başqalarının “Kaspi”

---

[12] Мовлаева S.A. Пропаганда русскойи азербайджанской культуры на страницах газеты “Каспий” (1881-1917 г.г.). – Baky: Елм, – 1983. – s.118

qəzetindəki jurnalistik fəaliyyəti milli oyanış ideyasının parlaq nümunələri idi. Dissertasiyada bu barədə ətraflı bəhs olunur.

Qəzetdə XIX əsrin sonları və XX əsrin əvvəllərində Azərbaycan maarifçilərinin milli ideallara, milli kimliyə aydınlıq gətirməsi, milli təəssübkeşliyin formalaşdırılması uğrunda mübarizə amallarına səyləri ictimai hərəkat səviyyəsinə çevrilmişdi. Sonralar redaktor kimi fəaliyyət göstərən M.Şahtaxtlı, C.Məmmədquluzadə, Ə.Hüseynzadə, Ə.Ağayev, H.Vəzirov, Ü.Hacıbəyov, C.Hacıbəyov və başqaları ilk peşə addımlarını "Kaspi" qəzetində atmışlar. "Kaspi"çilər XIX əsr milli oyanış, milli kimlik, azərbaycançılıq ideyalarının ilk dəstəsini təmsil etməklə sonrakı milli ideolgiyanın təməl daşlarını qoyanlar kimi heç vaxt unudulmayacaq.

Birinci fəslin **"Kaspi" qəzetində ictimai geriliyin, vaxtı ötmüş adət-ənənələrin aradan qaldırılması uğrunda mübarizə"** adlı ikinci paraqrafında görkəmli ziyalıların maarifçi ideyaları, zamana uyğun yeni düşüncənin yayılması, vaxtı ötmüş zehniyyətə "müharibə" elan edilməsi məsələlərindən bəhs olunur.Ə.Topçubaşov qəzetdə redaktor kimi fəaliyyətə başladığı ilk gündən özünün və digər maarifçilərin məramnaməsini ifadə edərək söyləyirdi ki: "*Biz bütün mümkün vasitələrlə həmvətənlərimizə hər iki cinsdən olan uşaqlar üçün ümumtəhsil və texniki məktəblərin açılması ideyasının zəruriliyini çatdırmağa çalışacağıq. Onlara yalnız məktəbin köməyi ilə istər maddi, istərsə də mənəvi baxımdan cəhalət, nadanlıq və səfalətdən tədricən xilas olmağın mümkünlüyü həqiqətini çatdıracağıq. Yalnız məktəbin onları hər cəhətdən təmin olunmuş vətəndaşlara çevirə biləcəyi fikrini geniş yayacağıq"*[13] Bu fikirlər Azərbaycan maarifçilərinin uğrunda mübarizə apardığı başlıca ideyalar idi.

Azərbaycan maarifçilərinin mübarizə meydanında qarşılaşdığı məsələ kütlələr arasında avamlığın, savadsızlığın yayılması, ruhanilərin isə cəhalətin, mövhumatın təbliği sahəsində heç bir sərhəd tanımayan canfəşanlığı, hiyləgər, fitnəkar əməlləri idi. XIX əsrin sonu – XX yuzilliyin əvvəllərində H.Zərdabi, M.Şahtaxtlı,

---

[13] Topçubaşov Ə. "Kaspi"dən seçmələr. – Bakı: Zərdabi LTD MMC, – 2018. – s.18

Ə.Topcubaşov, Ə.Ağaoğlu, Ə.Huseynzadə, C.Məmmədquluzadə, F.Köçərli, Ü.Hacıbəyov, C.Hacıbəyli, M.Sidqi, M.Mahmudbəyov, S.M.Qənizadə, T.Bayraməlibəyov, Y.V.Çəmənzəminli, H.Minasazov və digər görkəmli maarifçilər xalqın milli mənlik şüurunun oyanmasında, milli-mədəni dirçəlişində "Kaspi" qəzetinin imkanlarından lazımi səviyyədə istifadə etməyə çalışmışlar. Ziyalılar maariflənmə, savadlı olmaq üçün bu istiqamətdə görüləcək işlərin təkcə maddi, tədris- texniki cəhətləri ilə deyil, həm də insanlarda bu sahəyə daxili tələbat, ehtiyac yaratmağı lazım bilirdilər. Maraqlıdır ki, qəzetdə maarifçilər ziyanlı əxlaqi ehkamlar- müridizm haqqında tədqiqat xarakterli yazılar da nəşr etdirmişlər. Bu yazılardan biri görkəmli maarifçi M.Mahmudbəyova məxsusdur. O, öz məqaləsində ciddi elmi- tədqiqat işi aparmış, müridizmin mahiyyəti, onun müxtəlif təriqətləri, görkəmli mürşidləri, şeyxlik, onun Qafqazda yayılması haqqında son dərəcə doğru elmi məlumatlar vermişdir. Təsadüfi deyildir ki, XIX əsrin sonlarından başlayaraq, görkəmli rus və sovet tarixçiləri müridizmdən bəhs edərkən M.Mahmudbəyovun həmin əsərinə müraciət etmişlər.[14]

Azərbaycanda quldurluq, oğurluq etmək, gücsüz və sahibsizlərin varını-yoxunu talan etmək, insanları vəhşicəsinə öldürmək, qanlar tökmək və nəhayət, bu ağrılı vəziyyətlərə biganəlik göstərmək adi hala çevrilmişdi. Mövhumat və cəhalət insanların mənəviyyatını korlamış, simasızlaşdırmışdır. Əlbəttə, dəstə halında quldurluq, qaçaqlıq etmək, onu həyat tərzi kimi yaşamaq cəhalət dumanının sıx və dərin qatlara malik olması səbəbindən yaranırdı. Bu ictimai bəla günün hər hansı bir vaxtında, Azərbaycanın bütün regionlarında özünü göstərirdi. Bu cəhalət dumanı bölgələrdə işləyən müəllimlərin, maarifçi ziyalıların həmişə müşahidə etdiyi, gördüyü, tanış olduğu hadisələr idi. H.Zərdabi, Ü.Hacıbəyov, T.Bayraməlibəyov "Kaspi" qəzetinin səhifələrində bölgələrdə baş verən belə hadisələrin acı nəticələri ilə bağlı yazılar dərc etdirmişlər. H.Zərdabinin məqalələri maarifçilik ideyalarını kütlələr arasında

[14] Göyüşov Z. B. Azərbaycan maarifçilərinin əsərlərində əxlaq məsələləri. – Bakı: Azərnəşr, – 1964. – s.79-80·

yaymaq məqsədlərinə xidmət edən cəsarətli çıxışlar kimi dövrünün ictimai fikrinə əsaslı təsir göstərmişdir.

Birinci fəslin üçüncü paraqrafı **"Kaspi" qəzeti gəncliyin müasir düşüncə sahibi kimi formalaşmasında məktəbin və müəllimin rolu haqqında"** adlanır. Burada yeni üsullu məktəblərin açılması, gənc nəslin elmin sirrlərinə yiyələnməsi, cəmiyyət həyatına baxışlarının yeniləşməsi, onun fəal iştirakçısına çevrilməsi və s. məsələlər böyük maarifçinin təbliğ etdiyi əsas fikir, düşüncə qatı idi. H.Zərdabi biliyi işığa bənzədir və yazırdı ki, kim bilikdən məhrumdursa, o, işıqdan məhrumdur. Onun fikrincə, yaxşı təşkil olunmuş məktəblərin sayını artırmaqla, bir millət kimi öz yaralarımızı sağalda bilərik.[15]

Ə.M.Topçubaşov qeyd edirdi ki, məktəb xalqların ümumi rifahının ən etibarlı təminatıdır, xeyrin şər üzərində əsl qələbəsidir. Təəssüf ki, hələ bizdə icbari təhsil sistemi yoxdur. Təhsil varlıların kiçik bir azlığının imtiyazındadır. Zaman insanları elə qaydalarla yaşamağa məcbur edir ki, təhsilə xalqın bütün təbəqələrində maraq artır.

Ə.M.Topçubaşova görə təhsildə "şəxslər, rütbələr və dövlətlər" fərqi qoyulmadan bütün əhalininin təhsil ala bilmək imtiyazı nəzərə alınmalıdır. O yazırdı: "*Qafqaz məktəbinin ən çox təfərrüatlı araşdırmaya ehtiyacı var. Aramızda tayfa, dini və s. münasibətlərdə mövcud olan fərqlər, təbii olaraq orta məktəbin daxili həyatına təsir edən elə kəskin münasibətlərdə mövcud olan fərqlər, təbii olaraq orta məktəbin daxili həyatına təsir edən elə kəskin fərqlər yaradır ki, bu xüsusiyyətlər ilk növbədə, pedaqoji baxımdan nəzərə alınmalıdır.*" [16]

1897-ci ildən "Kaspi" qəzeti ilə əməkdaşlıq edən Əhməd bəy Ağayev qəzetdə daha çox islam dini ilə bağlı məqalələr yazmışdır. O, "Bizim müəllimlərimiz", "İran və inqilabı", "Sərbəst insanlar ölkəsində", "İslamda qadın", "Dövlət və fərd" və digər əsərlərində özünəməxsus maarifçi baxışları ilə seçilən mütəfəkkirlərimizdən biridir. Təhsildə müəllim adına layiq olmayan və peşə səriştəsinə

---

[15]Г.Зардаби. Наши сельские школы //"Каспий", 18 август 1899

[16] Топчибашев А.М. Избранное: В 4-х томах, Т.1. – Баку, – 2014. – s. 105

yiyələnməyən müəllimləri böyük maarifçi F.Köçərli qınayır və belə bir acınacaqlı vəziyyətin yaranmasından narahat olduğunu bildirirdi. F.Köçərli yazırdı: *"...Azərbaycan müəllimləri arasında çox təəssüf ki, öz baxışlarının geriliyi ilə ziyalı insanın mənəvi yükünü təşkil edən hər şeyə ziyan vuran belə müəllimlər az deyildir. Qəzet, jurnal, kitab oxumayanlar, savadsızlar, ifrat dərəcədə məhdud olanlar da vardır".*[17]

Azərbaycanın böyük şəhərlərində müəllimlər seminariyasının və ruhani seminariyasının yaradılması həqiqətən təhsil sahəsində müəyyən inkişafa səbəb ola bilərdi. Bu təhsil müəssisələrinin yaradılması milli təhsil mühitinə əsaslı təsir göstərə, gələcəkdə sənayenin, təsərrüfatın, mədəniyyətin müxtəlif sahələri üçün ixtisaslı kadr hazırlığına stimul verə bilərdi. Lakin sonrakı illərdə bu təhsil müəssisələrinin açılması ilə bağlı işlərin həyata keçirilməsi baş tutmadı.

Tədqiqatçı E.Vahabova bu vəziyyəti düzgün qiymətləndirərək yazırdı ki, hər il Bakı quberniyasının kəndlərində müəllimlərə tələbat daha da kəskinləşir, məktəblərin sayı artdıqca müəllim çatışmazlığı da öz təsirini göstərirdi. İxtisaslı müəllimlər şəhərlərdə, xüsusən də müəllimlərin maaşının daha çox olduğu, mühitin münasib olduğu, gənc müəllimlərin mədəni-mənəvi ehtiyaclarının ödənildiyi Bakı şəhərində qalmağa üstünlük verirdilər. Kəndlərdəki məktəblər yenidən müəllim kadrlarından məhrum oldu ki, hətta pedaqoji kursları bitirmiş keçmiş ali ibtidai məktəb şagirdlərinin müəllimləri də ideal görünürdü. Bu münasibətlə "Kaspi" müəllimlərin belə bir arzusunu dilə gətirirdi ki, *"Bir tikə qara çörək arzusunda olan dilənçi vəziyyətindəyik. Buna görə də, ilk fürsətdə daha çoxunu əldə etmək üçün təklif olunanı götürməli oldum.*[18]

Ceyhun Hacıbəylidə böyüyən nəslin şəxsiyyət kimi formalaşdırılması məsələlərindən geniş bəhs etmişdir. Təsadüfi deyil ki, "Kaspi" qəzetinin ən fəal iştirakçılarından biri olan C.Hacıbəylinin publisistikasının baş mövzusu (və məqsədi) zamanının qabaqcıl ideyalarını xalqın ruhuna hopdurmaqla onları

---

[17] Газета "Каспий", 5 oktyabr 1905-ci il
[18] Газета "Каспий", 8 oktyabr 1915-ci il

düzgün, zamana uyğun yaşamaq qaydalarına istiqamətləndirmək, böyüyən nəsli və deməli xalqın gələcəyi olan insanları digər xalqlar kimi müasir həyat tərzinə alışdırmaq idi. Bu ali məqsədin həyata keçirilməsi yol və imkanları isə məktəb və müəllimlər olmalı idi.

Azərbaycan məktəblərinin görkəmli müəllimləri bir çox mütərəqqi ideyaları – dünya pedaqoji mədəniyyəti xəzinəsini mənimsəmiş, özünün təcrübi işində bacarıqla istifadə etməklə gənc nəslin təlim-tərbiyə işinə tövhə verə bilmişlər. XIX əsr və XX əsrin əvvəllərində Azərbaycan pedaqoji fikrində yeni pedaqoji ideyaların, yeni tədris sistemlərinin tətbiqinə yiyələnmiş qabaqcıl müəllimlərin fəaliyyəti təqdirə layiqdir. Onların təhsil sahəsində yerli və dünya təcrübəsinə əsaslanaraq böyüyən nəslin təlim və tərbiyəsi işində qazandıqları uğurlar pedaqoji fikrimizin və təhsil tariximizin əhəmiyyətli səhifələrini təşkil edir. Bununla belə, qabaqcıl Avropa və rus pedaqogikasının nailiyyətlərindən istifadə edən məktəb və müəllimlərimizin təcrübələri zamanı üçün də, sonrakı dövrlər üçün də faydalı təcrübədir.

**“Kaspi” qəzetində Azərbaycan təhsili və pedaqoji fikrinin yeni şəraitdə formalaşması və inkişafı məsələləri”** adlı ikinci fəsil üç paraqrafdan ibarətdir. **“Kaspi” qəzetinin yeni pedaqoji ideyaların, dövrün təhsil nəzəriyyəsinin inkişafında rolu”** adlı birinci paraqrafda qəzetin yeni pedaqoji ideyaların, təhsil nəzəriyyəsinin yayılmasında yeri və rolu məsələlərindən bəhs olunur.

XIX əsrdə və XX yüz illiyin əvvəllərində ağılı əsas tutan hərəkat Azərbaycanda da müstəqil ideyalar sistemi kimi inkişaf edib formalaşdı. Professor Ə.Ağayev yazırdı ki, *“bu dövrdə fəaliyyət göstərən maarifçilər ictimai pedaqoji fikrin aparıcı qüvvəssi, Azərbaycan mədəniyyəti xadimlərinin bütöv nəsillərinin tərəqqipərvər ənənələrini, rus ictimai fikrinin və bütün dünya mədəniyyətinin qabaqcıl ideyalarını mənimsəmiş demokratik ziyalılar idi”.*[19]

Onlar yeni pedaqoji ideyalarla, qabaqcıl görüşlərlə silahlanmış

---

[19]Ağayev Ə. Pedaqoji fikrimiz:dünənimiz, bugünümüz. – Bakı: Elm, – 2000. – s.16

maarif ordusu yetişdirməklə böyüyən nəslin, əhalinin geniş təbəqəsinin ümumi təhsilə yiyələnməsi işini başlıca vəzifə hesab edirdilər. Milli atributların (islam dininin əsaslarının öyrədilməsi, ana dilinin tədrisi, milli ruhda dərsliklərin hazırlanması və tədris prosesində istifadəsi və s.), dünyəvi elmlərin tədrisi Azərbaycan maarifpərvərlərinin gündəmə gətirdiyi və həllinə nail olmaq istədiyi problemlər idi. Yeni pedaqoji nəzəriyyənin müddəaları ilə silahlanmış tədris müəssisələrinin yaradılması ölkənin vətəndaşlarının müasir həyat tərzinə qovuşmasına, mövhumat və cəhalət girdabından xilas olmasına zəmin yaradardı.

Maarifçilər yeni pedaqoji ideyaları – Qərb və rus pedaqogikasının mütərəqqi məzmuna malik nailiyyətlərini təbliğ edir, vətən övladlarının mənəvi zənginliyi və şəxsiyyət kimi formalaşması naminə bu ideyaların Azərbaycan məkanında istifadə olunması imkanlarını arayıb axtarırdı. Ziyalılarımızın bu istiqamətdə fəaliyyətinin zirvəsi bilavasitə “Kaspi” qəzetindəki uzunmüddətli əməkdaşlığı ilə bağlıdır. H.Zərdabi Qərbdə və Rusiyada formalaşan qabaqcıl pedaqoji nəzəriyyəni, təhsil sahəsindəki yenilikləri daima, müntəzəm izləmişdir. Məqalələrindən görünür ki, rus dili vasitəsi ilə olsa da, müəllif Amerika və Qərbi Avropa pedaqogikasının əsas yeniliklərindən məlumatlı olmuş, yerli pedaqoji mühitin, müxtəlif istiqamətli tədris-tərbiyə müəssisələrinin pedaqoq-müəllim heyətinin bu ideyalarla tanışlığına şərait yaratmağa çalışmışdır. “Bizim kənd məktəbləri”, “Amerikada əqli inkişafla əl əməyini birləşdirən yeni məktəb sistemi”, “Fəhlə uşaqları üçün məktəblər”, “Bədii-sənaye, tədris müəssisələri”, “Texniki məktəblər”, “Bakı-Dağıstan xalq məktəbləri direksiyasının Müəllimlər cəmiyyəti”, “Köçkünlərin yerləşdirildiyi sahələrdə təhsil”, “Şəhər Dumasının məktəb komissiyası”, “Yeni qız tədris müəssisələri haqqında layihə”, “Məktəb komissiyası”, “İki layihə xüsusunda”, “İpəkçilik (baramaçılıq) məktəbi” və digər məqalələri böyük maarifçini dövrünün pedaqoji problemlərinin mahir bilicisi kimi qiymətləndirməyə imkan verir.

“Fəhlə uşaqları üçün məktəblər” məqaləsində H.Zərdabi yazırdı ki, *“ölkənin fabrik və zavodlarının sahibkarları işçilərin uşaqlarının məktəb təhsilinə cəlb edilməsini özünün mənəvi borcu*

*saymalıdır. İldən-ilə fəhlələrin əməyi sayəsində milyonlar qazanan sahibkarlar onların uşaqları üçün tədris-tərbiyə müəssisələri açmağa mənən borclu olduğunu dərk etməlidirlər. Çünki savadlı işçi ətraf mühitin çirklənməsinin mənəvi və cismani ziyanını görüb bu təhlükədən xilas olmaq üçün öz tövhəsini verə bilər".*[20]

Dərin məntiqi baxışlara, yüksək polemik üsluba malik Əhməd bəy Ağayevin xalqın yeni şəraitdə tərbiyələnməsi ilə bağlı pedaqoji fikirləri digər maarifçi-pedaqoqların görüşlərindən fərqli məzmuna malik idi. O, Avropa təhsilindən və yaşayış tərzinin müsbət cəhətlərindən istifadə etməklə islami dəyərləri qoruyub saxlamağı bacarmağı vacib tələb kimi qarşıya qoyur və maraqlı təkliflər irəli sürürdü.

Ə.Ağayev belə bir cəhətə diqqəti çəkirdi ki, islam aləminə Avropanın, ümumən xristian ölkələrinin hərbi və fiziki təzyiqlərinin artması, müsəlman aləminin ictimai fikrində üç meylin yaranmasına səbəb oldu: "ifrat mütərəqqiçilər, yaxud yeni müsəlmanlar; ifrat köhnəpərəstlər" və panislamistlər. Adından göründüyü kimi "ifrat köhnəpərəstlər" hər cür yeniliyə, xüsusilə Avropa mədəniyyətinin müsəlmanlara sirayət etməsinə sipər çəkirdilər. Azərbaycançılıq ideologiyasına, ənənə və müasirliyə qarşı çıxır, bütün mənfi sifətləri məhz dindən uzaqlaşmaqla əlaqələndirirdilər. Onların əksinə olaraq "ifrat mütərəqqiçilər", "bütün həyat quruluşu Avropadan iqtibas edilməli və ona uyğun dəyişdirilməlidir" deyir, "Avropa elmi olduğu kimi Şərqə köçürülməlidir" kimi fikirlər irəli sürürdülər.[21]

Azərbaycan xalqının, ümumən Rusiya müsəlmanlarının maariflənməsi Ə.M.Topçubaşovun fəaliyyətinin mühüm istiqamətini təşkil edirdi. "Kaspi"yə redaktoluğunun ilk günlərindən əhalinin hüquqlarının müdafiəsini, dini təfriqətçiliyə qarşı arzuolunmaz niyyətləri, əhalinin savadlanmasını, həyat tərzini zamana uyğun qura bilməsini dönməz və ardıcıl mübarizə amalı bilmiş, özünün sosial fəaliyyət planına daxil etmişdir. Xüsusilə, 1901-1903-cü illərdə Ə.M.Topçubaşovun jurnalistik yaradıcılığında təhsil, gəncliyin

---

[20] Зардаби Г. Школа для детей рабочих. Газета "Каспий", 1 март 1900 г, № 47

[21] Azərbaycançılıq ideyası: ənənə və müasirlik. – Bakı: Elm və təhsil, – 2019. – s.276 - 277.

tərbiyəsi mövzusunda məqalələri geniş əks-səda doğurmuşdu.

Ə.M.Topçubaşov yazırdı ki, *"Şəxslər, rütbələr və dövlətlər" fərqi qoyulmadan bütün əhalini təhsillə əhatə etmək lazımdır. Tədris müəssisələri istiqamətində aparılan işlər zamanı hər bir sakinin arzu və ehtiyacları nəzərə alınmalıdır. Eyni zamanda məktəbin qarşılaşdığı çətinliklərin aradan qaldırılması üçün əziyyət çəkmək, onun inkişafı və çiçəklənməsinə sevinməliyik. Təkcə məktəb, xalqların ümumi rifahının ən etibarlı təminatıdır, yer üzündə Allahın bizə bəxş etdiyi yaxşılığın şər və hücum üzərində əsl qələbəsidir.*[22]

Ceyhun Hacıbəyli ziyanlı tərbiyəni cəmiyyətdə baş verən cinayət hadisələrinin nəticəsi kimi qiymətləndirirdi. O, publisist əsərlərində ümumtəhsil məktəbləri üçün Bakıda Müəllimlər Seminariyasının təsis edilməsi, ana dilinin tədrisinin yaxşılaşdırılması, qadın təhsili və tərbiyəsini problem kimi qoyur və həlli yollarını arayıb axtarırdı.

Ceyhun Hacıbəyli mövcud cəmiyyətin yaratdığı digər pedaqoji problemlər haqqında da yüksək intellekt sahibi və həsas vətəndaşlıq duyğusu ilə ictimai-pedaqoji mühiti düşündürən fikirlər söyləmişdir. Onun maarif, tərbiyə, təhsilə aid düşüncələri dövrünün qabaqcıl ideyaları kimi ayrıca tədqiqat mövzu olmağa layiqdir.

"Kaspi" qəzetinin səhifələrində müəllim kadrlarının hazırlanması, məktəb təhsili sahəsində çalşanların ixtisaslarının artırılması ilə bağlı fikirlər ziyalıların məqlələrində dönə-dönə səslənmiş, ixtisaslaşmanın əhalinin təhsillənməsi, məktəb şəbəkəsinin genişləndirilməsi işində böyük əhəmiyyətə malik vasitə olduğu dönə-dönə qeyd etmişlər.

Qəzetdə azərbaycanlı gənclər üçün Bakıda, yaxud ölkənin mədəni mühit mərkəzlərindən birində müəllimlər seminariyasının açılması zərurəti görkəmli maarifçilərdən Ə.M.Topçubaşov, Ə.Ağayev, C.Hacıbəyli, N.Nərimanov, R.Əfəndiyev, S.M.Qənizadə və digərləri tərəfindən sosial mühitə çatdırılırdı.

İkinci fəslin ikinci paraqrafı **"Kaspi" qəzeti yeni təhsil müəssisələrinin yaranması və inkişafının zəruriliyi haqqında"**

---

[22] Топчибашев А.М. К преобразованию средней школы // Газета "Каспий", 19 iyul, 1901

adlanır. Göstərilir ki, "Kaspi" fəaliyyətinin son günlərinə qədərki böyük bir dövr ərzində Şimali Azərbaycanın iqtisadi, siyası, ictimai həyatı imperiyanın ucqarları və mərkəzi əyalətlərindən fərqli, müəyyən inkişaf tempi ilə səciyyəvi olan bölgəyə çevrilmişdir. Bakıda "neft bumu" ilə yanaşı, həm də Azərbaycan ictimai-mədəni mühitinin reallaşması prosesi gedirdi. Belə bir siyasi-iqtisadi mühit pedaqoji ideyaların yayılmasına və təhsilin genişlənməsinə imkan yaradırdı. Məktəb, teatr, kitabxana, xeyriyyə cəmiyyətləri maarifçiliyi yaymağın başlıca vasitəsi hesab olunurdu. Bu vasitələr sırasında qəzetçilik, pedaqoji jurnalistika, əhalinin bütün təbəqələri arasında maarifi yaymağın çox mühüm və çevik vasitəsi idi. Pedaqoji jurnalistikanın görkəmli nümayəndələri ümumi təhsilin (ibtidai və orta təhsilin, gimnaziyaların) inkişafı ilə yanaşı, peşə, sənət, təsərrüfatın və sənayenin müxtəlif sahələri üzrə ixtisaslı kadr hazırlığına da xüsusi əhəmiyyət verirdilər. "Kaspi"də texniki məktəblər, bədii-sənaye tədris müəssisələri, ruhani və müəllim seminariyaları və digər tədris müəssilərinin yaradılması maarifçilərin qarşıya qoyduğu və həll etmək istədiyi problemlər idi.

Mövcud məktəblərlə yanaşı, yaradılması zəruri hesab edilən təhsil müəssisələri kimi aşağıdakılar göstərilirdi:

–şəhər və kənd ibtidai məktəbləri;

–rus-Azərbaycan məktəbləri;

–milli təhsil müəssisələri (ana dili məktəbləri);

– progimnaziya və gimnaziyalar;

–Orta ixtisas məktəbləri (texniki məktəblər, ticarət məktəbi, dənizçilik məktəbi, musiqi məktəbi, kommersiya məktəbləri, bağçılıq məktəbi və s.)

–Seminariyalar: Seminariyalar məzmuna və daşıdığı funksiyaya görə iki yerə ayrılırdı:

–Ruhani seminariyaları.

–Müəllimlər seminariyası: Bu tip tədris müəssisələri dünyəvi ümumtəhsil məktəbləri üçün müəllim kadrları hazırlamalı idi.

Qabaqcıl ziyalılar başa düşürdülər ki, şübhəsiz, demokratik transformasiyalar cəmiyyətin həyatında yalnız maarifləndirmə və təhsil yolu ilə mümkündür. Belə bir cəhət dövrün bir çox ziyalılarını narahat edən məsələ idi. Azərbaycanın ilk fizika alimi, tanınmış

publisist və teatrşünas, milli ali təhsil qurucularından biri Rəhim bəy Məlikov (Həsən bəy Məlikovun qardaşı oğlu) yazırdı ki, "*köhnəlmiş bürokratiyanın xarabalıqları üzərində yeni muxtar məktəb (yəni öz daxili məsələlərini müstəqil həll etmək hüququna malik olan) yaratmaq çətin məsələdir, lakin onun həlli üzərində düşünmək lazımdır".*[23]

Təhsilin nəzəri məsələləri, fəaliyyət prinsipləri "Kaspi" qəzetində araşdırılan problemlər idi. 1906-cı il fevralın 20-də Tiflisdə keçirilən "Barışdırıcı qurultay"da Ə.Ağayev və A.M.Topçubaşov tədrisi ana dilində aparmaqla ümumi icbari və pulsuz ibtidai təhsilin tətbiqi tələbini irəli sürürdü. 1915-ci ildə Bakı quberniyasında dünyəvi təhsil planının layihəsi hazırlandı. 1917-ci ilin statistikasına görə Bakı şəhəri bəzi nöqsanlara baxmayaraq, xalq təhsilinə göstərdiyi diqqətə görə Rusiya şəhərləri arasında şərəfli yer tuturdu. Bakı müsəlman ictimai təşkilatlarının məktəb məsələsi ilə bağlı bələdiyyə proqramı əhalinin təhsilə olan tələbatının geniş şəkildə ödənilməsini nəzərdə tuturdu. Çünki bütün milli etnik qruplardan azərbaycanlılar məktəblərə ən çox ehtiyac duyurdular. Qəzet etiraf edirdi ki, uzun müddət "məktəblər müsəlmanlardan, müsəlmanlar isə məktəblərdən uzaqlaşdırılıb"[24]

Ə.M.Topçubaşov "Ümumtəhsil kurslarının açılışı", "Bakıda orta təhsil", "Bizim ikinci dərəcəli tədris müəssisələri", "Bakıda öyrənmə böhranına doğru", "Azadlıq və məktəb" adlı məqalələri dövrünün orta təhsil müəssisəsi kimi gimnaziyaların vəziyyəti haqqında yazılan pedaqoji publisistikanın gözəl nümunələridir. H.Zərdabi bu sahənin inkişaf etdirilməsi üçün bütün bacarığını və idraki qüvvəsini sərf edən əsl təhsil bilicisi kimi tanınırdı. Böyük maarifçinin şəhərin texniki məktəbi haqqında yazdığı "Bakı mexaniki və inşaat-texniki məktəbi", "Bədii-sənaye tədris müəssisələri", "Bağçılıq məktəbi" və digər məqalələri dövrünün orta ixtisas məktəblərinin struktur-məzmununu şərhi, təsvir-təhlilidir.

"Kaspi"də Azərbaycan xalqı arasında ən çox yayılmış təhsil forması kimi məktəb və mədrəsələrdən də geniş şəkildə bəhs

---

[23] "Kaspi" qəzeti, 17 fevral 1906-cı il
[24] "Kaspi" qəzeti, 2/15 avqust 1917-ci il

olunmuşdur. Müasir tədqiqatlarda da göstərildiyi kimi, məscid məktəbləri və mədrəsələr islamın yarandığı ilk dövrlərdən fəaliyyətə başlamış, tədrisin məzmununa ərəb əlifbası ilə oxu və yazının, müqəddəs Quranın təlimi, şəriət qaydalarının öyrədilməsi başlıca məqsəd olmuşdur.

"Kaspi" qəzetində ümumi təhsilinin təkcə yeni əsasda qurulması deyil, sənayenin, mədəniyyətin müxtəlif sahələrini əhatə edən orta ixtisas təhsilinin geniş şəbəkəsinin yaradılması da zəruri tələb kimi qarşıya qoyulurdu. Maarifçi-pedaqoqlar ümumi təhsilin inkişafı ilə yanaşı, peşə, sənət, təsərrüfatın və sənayenin müxtəlif sahələri üzrə ixtisaslı kadr hazırlığına da xüsusi əhəmiyyət verirdilər. "Kaspi"də texniki məktəblər, bədii-sənaye tədris müəssisələri, ruhani və müəllim seminariyaları və digər tədris müəssilərinin yaradılması haqqında ideyalar maarifçilərin qarşıya qoyduğu və həll etmək istədiyi problemlər idi. Bu məsələlər zamanının və sonrakı pedaqoji nəzəriyyənin inkişafına təsirsiz ötüşməyən ideyalar idi.

Dissertasiyanın ikinci fəslinin üçüncü paraqrafı **"Kaspi" qəzetində qadın təhsili və tərbiyəsi məsələləri"** adlanır. Göstərilir ki, qızların təhsili dövrünün sosial-pedaqoji problemi kimi maarifçiliyin həllinə nail olmaq istədiyi mühüm vəzifələrdən olmuşdur. XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində sosial-pedaqoji mühitdə qızların təhsilə cəlb olunması ideyası əsas yer tuturdu. Bu ideyanın yayılması işində Azərbaycan dilindəki mətbuatla yanaşı, "Kaspi" qəzetində də qızların təhsilinə müntəzəm və geniş yer verilirdi. "Kaspi"də cəmiyyət həyatında qadının rolunu yüksək qiymətləndirir, bu məsələyə ictimai- mədəni və pedaqoji hərakatın üzvü bir hissəsi kimi baxırdı.

H.Zərdabi hələ 1896-cı il yanvarın 19-da Bakı qubernatoruna ərizə ilə müraciət edib Bakıda azərbaycanlı qızlar üçün birsinifli məktəb açmağa icazə verilməsini xahiş etmişdir.[25]

Qızların təhsil almaları üçün birsinifli məktəb açmaq niyyəti baş tutmasa da, H.Zərdabi 1897-ci ildə şəhər Dumasının iclaslarının birində məşhur xeyriyyəçi H.Z.Tağıyevdən məsələ ilə bağlı etdiyi xahişi və təklifi qəbul edilmişdir.

---

[25] Zərdabi H. Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, – 1960. – s.24

Böyük xeyriyyəçi H.Z.Tağıyevin Bakıda təsis etdiyi qız məktəbi 7 oktyabr 1901-ci ildə fəaliyyətə başladı. Bu hadisə XIX əsr Azərbaycan ziyalılarının uğrunda mübarizə apardığı ideyanın gerçəkləşməsi mərhələsi idi. Məktəb Azərbaycan tarixinə "Tağıyevin Qız Məktəbi" kimi daxil oldu. Məktəbin açılışı münasibətilə "Kaspi"də bir neçə məqalə və xeyli sayda təbrik teleqramları getmişdi. Ə.M.Topçubaşov məktəbin açılışı münasibətlə yazırdı ki, *"Rusiyada müsəlman qızlar üçün ilk qadın məktəbinin açılması Bakı şəhərinin salnaməsində əlamətdar mədəni hadisə kimi yadda qalacaq. Bu çox arzulanan məktəbin açılışını bütün qəlbimizlə alqışlayırıq. Bu məktəbi yaratmaqla biz xoşbəxtik ki, Qafqaz regionu və bütün Rusiya müsəlmanları arasında qızların təhsili sahəsində uğurların, səmimi diləklərinin sözçüsüyük".*[26]

Məktəbə əhalinin bütün zümrələrindən 7 yaşı tamam olmuş azərbaycanlı qızlar qəbul edilirdi. Məktəb qapalı təhsil müəssisəsi (pansion) hesab olunurdu. Məktəbə dərslər bitdikdən sonra evə gedib gələn qızlar da daxil ola bilərdi. Lakin onlar ödənişli əsaslarla oxuya bilərdilər.

H.Z.Tağıyevin qız məktəbinin müəllimləri yalnız müsəlman qadınlardan təşkil olunmuşdu. Hənifə xanım Məlikova H.Z.Tağıyevin məsləhəti ilə qızlar məktəbinin ilk nəzarətçisi (müdiri) olmuşdur. Məryəm Sulkeviç, Gülbahar Axrıyeva, Ədilə Şahtaxtinskaya, Səlimə Yaqubova rəhbərlik etmişlər. Rəhilə Terequlova, Bibi-Xadicəxanım Abdürrəhmanova, Səidə Şeyxzadə, Sara Vəzirova, Nabat Nərimanova, Gövhər Qazıyeva və başqalarının adları məktəbin tanınmış pedaqoq-müəllimələri kimi xatirələrdə və təhsil tariximizə aid tədqiqatlarda yaşayır.

Məktəb Qafqaz Tədris Dairəsi tərəfindən idarə olunurdu. Təlimin məzmununa ibtidai təhsil səviyyəsində öyrədiləcək ilahiyyat (şəriət qanunları), Azərbaycan və rus dilləri, hesab və ibtidai coğrafiya fənləri daxil idi. Qız məktəbinə 1901-ci ildə qəbul edilən öyrənənlərin ümumi sayı 50 nəfər olmalı idi, lakin məktəbə daxil olmaq istəyənlər çox olduğundan, qəbul 58 nəfərə çatdırıldı. Tədris müddəti 4 il idi.

---

[26] "Kaspi" qəzeti, 7 oktyabr 1901-ci il

Təhsil müəssisəsinin açılışı günü Qafqaz şeyxülislamı Axundzadə, Zaqafqaziya müftisi Qayıbov, Əhməd bəy Ağayev çıxış etmişdi. İmperiyanın bir çox şəhərlərindən, Qafqaz Tədris Dairəsindən, Azərbaycanın müxtəlif bölgələrindən məktəbin açılışı münasibətilə təbrik məktub və teleqramları gəlmişdi. Bakıda rus-Azərbaycan qız məktəbinin açılması ilk addım idi. Xeyriyyə cəmiyyətlərinin, yerli idarəçilik orqanlarının vasitəsilə Azərbaycanın bir sıra regionlarında da qadın məktəbləri açıldı. İlk rus-Azərbaycan qız məktəblərindən biri İrəvanda fəaliyyət göstərirdi. Sonralar Naxçıvan, Şuşa, Ağdaş, Gəncə, Nuxa, Şamaxı, Lənkəran, Salyan, Cəbrayıl, Qazax və digər şəhərlərdə də qız məktəbləri yaradıldı.

Aparılmış tədqiqat aşağıdakı **nəticələrə** gəlməyə imkan verdi:

– Tədqiqat nəticəsində belə bir qənaət yaranır ki, XIX əsr və XX əsrin əvvəlləri "Kaspi" qəzeti tarixi-pedaqoji mənbə kimi təhsilin və pedaqoji fikrin görkəmli nümayəndələrinin gərgin və çoxşaxəli fəaliyyətini əks etdirir, məktəblərin tipologiyası, tədrisin məzmunu baxımından ən müxtəlif material verir, pedaqoji axtarışların bütün çətinliklərini və nailiyyətlərini özündə cəmləşdirir.

– "Kaspi" Azərbaycan təhsilinin, məktəbinin tarixi haqqında ən zəngin materiallar toplusudur. Qəzet keçmişi düşünmüş, dövrünün məktəb və pedaqoji fikrinin problemləri ilə yaşamış, təhsil məsələsində bir çox mütərəqqi ideyaların təbliğatçısı olmuşdur. Qəzet xalqımızın ümid və arzularını əks etdirən nəşr nümunəsi kimi yadda qalan olmuş, tariximizin bəhs olunan dövrünü daha real işıqlandırmışdır. Sonralar redaktor kimi fəaliyyət göstərən M.Şahtaxtlı, C.Məmmədquluzadə, Ə.Hüseynzadə, Ə.Ağayev, H.Vəzirov, C.Hacıbəyov və başqaları ilk peşə addımlarını "Kaspi" qəzetində atmışlar.

– "Kaspi"çilər XIX əsr milli oyanış, azərbaycançılıq ideyalarını təmsil etməklə sonrakı milli ideolgiyanın təməl daşlarını qoyanlar kimi tarixin yaddaş səhifələrində layiqli yer tutmuşlar. Rus dilli nəşr olsa da, qəzet Azərbaycanda maarifçilik ideyalarının böyük təbliğatçısı olmuş, milli geriliyə səbəb ola biləcək mənfi hallara qarşı ardıcıl mübarizə aparmışdır.

– Qəzetin ali idealı belə idi ki, cəmiyyətin həyatında demokratik transformasiyalar yalnız maarifləndirmə yolu ilə

mümkündür. İnsanların şüurunda və mənəviyyatında yeniləşməyə nail olmaq, mütərəqqi məzmuna malik dəyişikliklər yolunu tutmaq, köhnə zehniyyətdən, tərbiyə üsullarından yaxa qurtarmaq yalnız maariflənmə və təhsil, məktəb sayəsində mümkün ola bilər. Bu cəhət zamanla ayaqlaşmağın, onun diqtəsi ilə yaşaya bilməyin yeganə və zəruri tələbidir.

– Mövcud məktəblərin vəziyyəti, pedaqoji mühitdəki yeniliklər, təhsilin struktur məzmunundakı əsaslı dəyişikliklər qəzetin mütəmadi işıqlandırdığı problemlər idi. “Kaspi”də məktəb təhsilinin yeni əsasda qurulması, sənayenin, mədəniyyətin müxtəlif sahələrini əhatə edən orta ixtisas təhsilinin geniş şəbəkəsinin yaradılması da zəruri tələb kimi qarşıya qoyulurdu.

– Qəzetin səhifələrində qız məktəbi, burada tədrisin məzmunu, cəmiyyət həyatında verəcəyi fayda və s. məsələlərlə bağlı xeyli sayda materiallar var. “Kaspi”də ziyalıların qız təhsili ilə bağlı ictimai fikri məlumatlandırmaq səyləri, bu sahədə H.Z.Tağıyevin əməli fəaliyyətinin nəticəsi olan qız məktəbi heç bir məhdudiyyət qoyulmadan işıqlandırılmışdır.

– “Kaspi” qəzetində yeni pedaqoji ideyalar, təhsilin müxtəlif problemləri haqqında pedaqoji publisistikanın nümunələri var. Bu nümunələr Azərbaycan mədəniyyətinin, təhsilinin, pedaqoji fikrinin konkret tarixi şərait və əvvəlki tarixi zamanda məzmun istiqamətini, inkişaf xüsusiyyətlərini lazımi səviyyədə əks etdirir. Təhsil tariximizin bu böyük mədəni-pedaqoji xəzinəsinin müxtəlif sahələrinin öyrənilməsi istiqamətində tədqiqatların hazırlanması aktuallığı tükənməmişdir.

Tədqiqatdan çıxan nəticələrə görə **təklif** edirik ki:

– “Kaspi” qəzetində XIX əsrin sonları və XX əsrin əvvəllərində Azərbaycan təhsili və pedaqoji fikrin inkişaf tarixinə aid materiallar tələbələrin tədris-təlim işində fayda verər, elmi-nəzəri fikirdə bəhs olunan dövrün ümumi mənzərəsini zənginləşdirər.

– Tədqiqatın nəticələrindən elmi və kütləvi nəşrlərin hazırlanmasında istifadə edilə bilər.

– Ali məktəblərin pedaqoji fakültələrində tədris olunan “Azərbaycan məktəb və pedaqoji fikir tarixi” adlı fənnin tədrisində,

xüsusi kursların, seçmə fənlərinin tədrisində, tədris vəsaitlərinin hazırlanması işində səmərə verər.

**Dissertasiyanэn məzmunu, əsas nəticə və yenilikləri mьəllifin зар olunmuю aюарэdakэ məqalələ və konfrans materiallarэnda цz əksini tapmэюdər:**

1. "Kaspi" qəzetində qızların təhsili məsələləri // – Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, Humanitar elmlər seriyası, – Naxçıvan: Qeyrət, – 2020. №4, – s.154-157

2. "Kaspi" qəzeti milli oyanış və azərbaycançılıq haqqında //– Naxçıvan Müəllimlər İnstitutunun Elmi əsərləri, – Naxçıvan: Məktəb, – 2021. №3, – s.206-210

3. "Kaspi" qəzeti Həsən bəy Zərdabinin maarifçi-pedaqoji fəaliyyətinin yeni mərhələsi kimi // – Doktorantların və gənc tədqiqatçıların XXIV respublika elmi konfransının materialları, Azərbaycan Texniki Universiteti, 23-24 noyabr 2021-ci il, – Bakı, – 2021. – s.239-241

4. Üzeyir və Ceyhun Hacıbəyov qardaşları və "Kaspi" qəzeti // "Müasir təhsilin inkişaf strategiyaları: uğurlar və çağırışlar" mövzusunda Beynəlxalq elmi konfransın materialları, 26-27 noyabr 2021-ci il, – Naxçıvan, –2021. – s.220-222

5. Həsən bəy Zərdabi və "Kaspi" qəzeti// – Naxçıvan Universitetinin Elmi əsərləri, II hissə, – Naxçıvan: Nuh, – 2022. №1, – s.323-329.

6. "Kaspi" qəzeti böyüyən nəslin müasir düşüncə sahibi kimi formalaşmasında məktəbin və müəllimin rolu haqqında // – Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri, Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, – Bakı: ADPU, – 2022. – c.70, №4, – s.122-131

7. Egitim düşüncesi çerçevesinde "Kaspi" qazetesinin degerlendirilmesi// – Uluslararası Liderlik Egitimi Dergisi, – 2023. Cilt:7, Sayı:1, – 14-28

8. Examination of Alimerdan bey Topchubashov's educational thoughts within the framework of the articles in the newspaper "Kaspi" // Uluslararası Eğitim Teknolojileri ve Çevrimiçi öğrenme konferansı, – 2023

9. “Kaspi” qəzeti ixtisaslı kadr hazırlayan təhsil müəssisələri uğrunda mübarizədə // – Naxçıvan Müəllimlər İnstitutunun Elmi əsərləri, – Naxçıvan: Məktəb, – 2023. № 3, – s. 52-57

Dissertasiyanın müdafiəsi - 21 Fevral 2025-ci il tarixində saat 10⁰⁰ Naxçıvan Müəllimlər İnstitutu nəzdində fəaliyyət göstərən

FD 2.40 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Naxçıvan Muxtar Respublikası, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1, AZ 7003, Naxçıvan Müəllimlər İnstitutu.

Dissertasiya ilə Naxçıvan Müəllimlər İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Naxçıvan Müəllimlər İnstitutunun rəsmi internet saytında (www.nmi.edu.az) yerləşdirilmişdir.

Avtoreferat "17" Yanvar 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 13.01.2025
Kağızın formatı: 60/84, 16/1
Həcm: 39.014
Tiraj: 100